

**Əl işdən soyumaz, ürək arzudan...**

# QƏBƏLƏ

ictimai-siyasi qəzet

№ 18-19 (7480-7481) ✻ 1933-cü ildən nəşr olunur ✻ Cümə, 13 aprel 2018-ci il. ✻ Qiyməti 40 qəpik


## PREZİDENTİN İŞ GÜNDƏLİYİNDƏN

***12 aprel***

*Prezident İlham Əliyev Avropa Parlamentinin (AP) sabiq vitse-prezidenti, AP-nin deputatı Riçard Çarnetskini qəbul edib.*

* * *

*Dövlət başçısı İlham Əliyev Türkiyə Böyük Millət Məclisinin Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun həmsədri Necdet Ünüvarın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.*

* * *

*Azərbaycan Prezidenti İlham Əliyev Mərkəzçi Demokratlar İnternasionalının vitse-prezidenti Mario Davidi qəbul edib.*

* * *

*Ölkə başçısı İlham Əliyev MDB İcraiyyə Komitəsinin sədri-icraçı katibi, MDB-dən seçkilərdə müşahidəçilər missiyasının rəhbəri Sergey Lebedevin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.*

* * *

*Bakının Yasamal rayonunda Hacı Cavad məscidinin yeni binasının açılışı olub.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva açılış mərasimində iştirak ediblər.*

*Yasamal Rayon İcra Hakimiyyətinin başçısı Əziz Əzizov dövlətimizin başçısına görülən işlər barədə məlumat verib.*

* * *

*Prezident İlham Əliyev Avstraliya İttifaqı parlamentinin nümayəndə heyətini qəbul edib.*

* * *

*Dövlət başçısı İlham Əliyev Şanxay Əməkdaşlıq Təşkilatının (ŞƏT) baş katibi Rəşid Əlimovun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.*

***11 aprel***

*Prezident İlham Əliyev aprelin 11-də keçirilən seçkilərdə ona göstərilən böyük etimada görə xalqımıza müraciət edərək minnətdarlığını bildirib.*

***5 aprel***

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiyanın TASS informasiya agentliyinin baş direktorunun birinci müavini Mixail Qusmana müsahibə vermişdir.*

* * *

*Ölkə başçısı İlham Əliyev BMT Baş Assambleyasının 72-ci sessiyasının sədri Miroslav Layçakı qəbul etmişdir.*

## Aprelin 9-da Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2018-ci ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilib



***Dövlət başçısı iclası giriş nitqi ilə açıb.***

***Sonra "Azərişıq" Açıq Səhmdar Cəmiyyətinin sədri Baba Rzayev, "Azərsu" Açıq Səhmdar Cəmiyyətinin sədri Qorxmaz Hüseynov və Azərbaycan Respublikasının Prezidenti yanında Mənzil İnşaatı Dövlət Agentliyinin direktoru Samir Nuriyev çıxış ediblər.***

***Prezident İlham Əliyev iclasda yekun nitqi söyləyib.***

## 2018-ci ilin birinci rübü uğurlarla başlayıb

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Nazirlər Kabinetinin 2018-ci ilin birinci rübünün iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş yığıncağında qeyd etmişdir ki, bu ilin ötən üç ayı ölkəmiz üçün uğurlu olmuşdur. Belə ki, birinci rübdə ölkəmizdə bir neçə mötəbər tədbir keçirilmişdir. Bu tədbirlər içərisində VI Bakı Qlobal Forumu xüsusilə fərqlənir. Forumda 50-dən çox ölkədən 47 fəaliyyətdə olan və sabiq dövlət başçısı iştirak etmişdir. Birinci rübdə ölkəmizə 7 dövlət və hökumət başçısı səfər etmişdir.

Aprel ayında ölkəmizdə Qoşulmama Hərəkatının xarici işlər nazirlərinin konfransı keçirilmişdir. Konfransda 120 ölkədən nümayəndə iştirak etmişdir. Gələn ildən başlayaraq Azərbaycan Qoşulmama hərəkatına sədrlik edəcəkdir ki, bu da ölkəmizə göstərilən böyük hörmətin və inamın təzahürüdür.

Birinci rübdə Azərbaycan iqtisadi sahədə böyük uğurlar əldə etmişdir. Ölkə iqtisadiyyatına bu rübdə 3.5 milyard dollar sərmayə qoyulubdur ki, bunun böyük əksəriyyəti xarici sərmayələrdir. Azərbaycan iqtisadiyyatı 2,3 faiz artmışdır. Qeyri-neft sektorunda artım 3 faiz olmuşdur ki, bu da iqtisadiyyatımızın şaxələndirilməsi istiqamətində aparılan siyasətin nəticəsidir.

İlin arxada qalan 3 ayında sənaye istehsalı 2 faiz, qeyri-neft sənayesi təxminən 10 faiz artmışdır. Bu da ölkəmizdə son illər aparılan sənayeləşmə siyasətinin nəticəsidir. Kənd təsərrüfatı bu rübdə 4,2 faiz artıb. Bitkiçilik sahəsində 50 faizdən çox artım olmuşdur.

Ölkəmizin valyuta ehtiyatları 2,2 milyard dollar artmışdır və hazırda 44,2 milyard dollara bərabərdir.

2018-ci ilin əvvəlindən, keçən 3 ay müddətində xarici ticarət dövriyyəsi 31 faiz artmışdır. Ölkəmizin xaricə ixrac etdiyi mallarda artım 24 faiz olmuşdur ki, burada qeyri-neft ixracı xüsusi yer tutur. Belə ki, qeyri neft mallarının ixracı 37 faiz artmışdır.

Həmişə olduğu kimi bu ilin birinci rübündə də yeni iş yerlərinin açılmasına xüsusi diqqət yetirilmişdir. Ölkə üzrə 34 min iş yeri yaradılmışdır ki, onların 31 mini daimi iş yerləridir. Beləliklə, 2004-cü ildən bu günə qədər təxminən 1 milyon 500 min yeni daimi iş yeri açılmışdır.

Respublikamızda birinci rübdə infilyasiyanın həddi cəmi 4 faiz olmuşdur. Əhalinin gəlirləri təxminən 10 faiz artmışdır.

Sosial məsələlərin həlli sahəsində ölkədə böyük işlər görülmüşdür. Birinci rübdə büdcədən maliyyələşən bütün təşkilatlarda maaşlar və pensiyalar qaldırılmışdır.

İqtisadi sahədə əldə edilmiş uğurlar infrastruktur layihələrinin də uğurla davam edilməsinə imkan yaratmışdır. Yeni xəstəxanaların, məktəblərin, olimpiya-idman qurğularının, digər sosial infrastruktur layihələrinin həyata keçirilməsi dövlət başçısı cənab İlham Əliyev tərəfindən təsdiqlənmiş proqram və planlara uyğun davam etdirilmişdir.

**Qüdrət SƏMƏDOV,**
**«Qəbələ»**